Azərbaycan Turizm və Menecment Universiteti ilə IMC Krems Tətbiqi Elmlər Universiteti arasında elmi tədqiqatlar üzrə birgə fəaliyyətin təşkili ilə əlaqədar

prosedur

QAYDALAR

ATMU-BƏŞ-Q(ETBFT)-01

BAKI 2023

Dəyişikliklər haqqında məlumat			
Tarix	Versiya	Tərtib etdi	Dəyişikliyin izahı
29.12.2023	01	Orxan Musa Hacı Qasımlı İranə Axundova Aytac Babayeva	Azərbaycan Turizm və Menecment Universiteti ilə IMC Krems Tətbiqi Elmlər Universiteti arasında elmi tədqiqatlar üzrə birgə fəaliyyətin təşkili ilə əlaqədar prosedur QAYDALAR



"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru _____ İ.İ.Mədətov
_____ 2023-cü il

Azərbaycan Turizm və Menecment Universiteti ilə IMC Krems Tətbiqi Elmlər Universiteti arasında elmi tədqiqatlar üzrə birgə fəaliyyətin təşkili ilə əlaqədar

prosedur

QAYDALAR

1. Ümumi müddəalar

1.1. Bu qaydalar Azərbaycan Turizm və Menecment Universiteti (bundan sonra ATMU) və IMC Krems Tətbiqi Elmlər Universiteti (bundan sonra IMC Krems TEU) ilə birgə elmi-tədqiqat fəaliyyətinin təşkilini müəyyən edir.

1.2. Birgə layihə çərçivəsində aparılan elmi tədqiqat işlərinin təşkili:

1.2.1. Elmi-tədqiqat fəaliyyətinin istiqamətinin və tədqiqat mövzusunun müəyyən edilməsi;

1.2.2. Elmi tədqiqat mövzusunun qeydiyyatının həyata keçirilməsi;

1.2.3. Elmi-tədqiqat qrupunun tərkibinin müəyyən edilməsi;

1.2.4. Elmi tədqiqat fəaliyyətinin (işləməsinin) həyata keçirilməsi prosesinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunlaşdırılması.

1.3. Birgə layihə çərçivəsində aparılan elmi-tədqiqat işlərinin əsas funksiyaları:

1.3.1. ATMU-da IMC Krems TEU ilə birgə aparılan elmi-tədqiqat işlərinin birgə planlaşdırılmasını və həyata keçirilməsini təşkil etmək və birgə işin həyata keçirilməsinə nəzarət funksiyasına hərtərəfli köməklik göstərmək, nəzarət funksiyasını həyata keçirmək;

1.3.2. Uzunmüddətli və qısamüddətli elmi-tədqiqat işlərinin planlaşdırılmasının həyata keçirilməsi;

1.3.3. Hər iki universitetdə böyük aktuallıq və elmi əhəmiyyət kəsb edən elmi-tədqiqat planlarının layihələrinin hazırlanması və birgə müzakirəsi;

1.3.4. Birgə elmi-tədqiqat işinin gözlənilən nəticələrinin birgə proqnozlaşdırılması, hesabatın hazırlanması, nəticələrin birgə çapının təmin edilməsi;

1.3.5. Sənədlərin tərtibinin keyfiyyətinə, normativ sənədlərə (hər iki ölkə üçün) və müqavilə şərtlərinə riayət olunmasına nəzarətin həyata keçirilməsi;

1.3.6. hər iki universitetin elmi tədqiqat fəaliyyətinin vəziyyəti, inkişaf perspektivləri və digər analitik məlumatlar barədə Elmi Şuraya hesabatların təqdim edilməsi , elmi-tədqiqat işlərinin aparılması prosesində yaranan çətinliklərin aradan qaldırılması və onların yekunlaşdırılması;

1.4. Birgə layihə çərçivəsində aparılan elmi-tədqiqat işlərinin əsas vəzifələri:

1.4.1. Hər iki ölkədə cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafında elmi potensialdan səmərəli istifadə etmək;

1.4.2. Yüksək ixtisaslı kadrların hazırlanması və onların əmək bazarında rəqabət qabiliyyətinin təmin edilməsi;

1.4.3. elmi tədqiqatların nəticələrini tədris prosesinə tətbiq etməklə elmi-texniki əməkdaşlığın və əməkdaşlığın perspektiv formalarının inkişafı;

1.4.4. Birgə elmi-tədqiqat fəaliyyəti hər iki universitetin vəsaiti, qrantlar, müxtəlif fondlardan və sifarişçi təşkilatlardan alınan vəsaitlər və digər qanuni mənbələr hesabına həyata keçirilir.

Hazırki monitorinq planı 29 dekabr 2023-cü il tarixli Elmi Şuranın iclasında 4 №-li protokolla təsdiq edilmişdir.